10
2018

# GÖYƏRÇİN

İSSN-0207-4710



# PIX

*(Belarus nağılı)*

Biri var idi, biri yox idi, bir baba, bir nənə və onların Alyona adlı gözəl bir nəvələri var idi. Onlar bostanda hər cür tərəvəz əkib becərirdilər. Kələm, çuğundur, kök, sarı, turp... Bir dəfə babanın ürəyindən turp yemək keçdi. O, evdən çıxıb, bostana getdi. Çox isti və sakit bir hava idi. Arıların dızıltısı, ağcaqanadların vızıltısı aydınca eşidilirdi.

Baba kələm, çuğundur, kök ləklərinin yanından ötüb keçdi. Hə, bu da turp əkilən yer... Baba yaxına gedib turplardan birini dartıb yerdən çıxarmaq istədi. Birdən onun qulağına qəribə, əcaib bir səs gəldi: Pışş – pıxxx... Baba elə bildi ki, bu, onunla zarafat eləyən nəvəsinin səsidi.

-Alyona, bu sənsən? Məndən qabaq turp çıxartmağa gəlmisən?

Qızdan səs gəlmədi. O əcaib səs yenidən eşidilməyə başladı. Baba qorxdu, tükləri biz-biz oldu. Çuğundur, kök, kələm ləklərinin yanından ötüb qaça-qaça evə sarı getdi. Tövşüyə-tövşüyə dükanda əyləşsə də, bir müddət sakitləşə bilmədi.

Nənə yaxın gəlib soruşdu:

-Ay kişi, turp çıxarıb gətirdinmi?

-Yox, ay arvad, turp ləkinin yanında elə bir vəhşi heyvan var idi ki, qaçıb canımı güclə qurtardım.

-Yox bir, vəhşi heyvan! Ayrı bəhanə tapmadın gətirməyə? Yaxşı, indi özüm gedib turp gətirərəm.

Nənə asta-asta kələm, çuğundur, kök ləklərinin yanından ötüb keçdi. Sonra turp əkilən yerə çatdı. Əl atıb turplardan birini çıxarmaq istəyəndə, onun da qulağına qəribə səslər gəldi:

- Pışş – pıxxx... Pışş – pıxxx... Pışş – pıxxx...

Nənə bərk qorxdu və çuğundur, kök, kələm ləklərinin arasından sürətlə keçib, evə sarı qaçmağa başladı. Babanı görən kimi təngənəfəs halda dedi:

-Oy, ay kişi, sən düz deyirmişsən! Orada, turp ləklərinin dibində nəsə vəhşi bir heyvan uzanıb xoruldayır...

Babası ilə nənəsinin söhbətini eşidən Alyona gülüb dedi:

-İndi mən özüm gedib sizin üçün turp çıxarıb gətirərəm.

Alyona bostana getdi. Sakitlik idi. Arıların vızıltısı, ağcaqanadların dızıltısından başqa heç bir səs eşidilmirdi. Alyona turpluğa çatanda onun da qulağına həmin əcayib səs gəldi:

- Pışş – pıxxx... Pışş – pıxxx... Bu Alyonkadımı? O, turp çıxarmağamı gəlib?

Alyonka gülə-gülə dedi:

-Hə, mənəm, Alyonkayam! Babamla nənəm turp çıxarmağa gələndə onları qorxutmusan. Çıx görüm sən kimsən?

Yenə həmin səs eşidildi:

- Pışş – pıxxx... Pışş – pıxxx...

Alyona əyilib turpun dibin baxdı ki, görsün ki, bu səs hardan gəlir. Birdən onun gözünə tikanlı bir yumaq sataşdı. Gördü ki, bu yumaq yatıb və qəribə bir səs çıxarır:

- Pışş – pıxxx... Pışş – pıxxx...

Alyona gülə-gülə dedi:

-Ay səni oxlu kirpi! Sən babamla nənəmi əməlli-başlı qorxutmusan.

Sonra qız iri bir turpun yarpaqlarından tutub dartdı, dartdı, axır ki, onu yerdən çıxara bildi. Oy dad, turp nə turp! İri, sapsarı, şipşirin! Qızcığaz hələ ömründə bu boyda turp görməmişdi.

Alyona turpu da, kirpini də götürüb evə sarı getdi. O, kələm, çuğundur, kök ləklərinin yanından ötüb keçdi. Qaça-qaça, sevinə-sevinə evə getdi. Onu baba ilə nənə qarşıladılar və soruşdular:

-Alyona, bəs turp hanı?

-Bax, bu da sizin turpunuz!

Baba ilə nənə turpu görüb çox sevindilər:

-Ay bizim ağıllı nəvəmiz! Ay bizim cəsarətli Alyonamız! Əhsən sənə! De görək bəs o qorxulu Pıx necə oldu?

Alyona gülə-gülə kirpini onların qarşısında yerə qoyub dedi:

-Bu da sizin Pıx!

Qocalar şaqqanaq çəkib güldülər və nəvələrini tərifləməyə başladılar:

- Əhsən sənə, Alyona! Sən çox cəsarətli və ağıllı qızsan! Biz səninlə fəxr eləyirik!

*Tərcümə edib işləyəni:* R.Y.Əliyev



